AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Maliyyə institutu kimi fəaliyyət göstərirsiniz?

**O halda bilməlisiniz ki, qanunvericiliyin tələblərinə riayət etmədiyiniz təqdirdə, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən, Sizi aşağıdakı maliyyə sanksiyalarına məruz qalmaq riski gözləyir:**

- Hüquqi və fiziki şəxslərə hesab açıldıqda və ya maliyyə xidmətləri göstərildikdə, Azərbaycan Respublikasının **normativ hüquqi aktlarının**, habelə vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı **beynəlxalq müqavilələrin tələblərinə əməl edilmədikdə** hər belə hesab və ya əməliyyat üçün **500 manat** məbləğində;
- Maliyyə institutları tərəfindən təqdim edilməsi nəzərdə tutulan **elektron hesabatın** müəyyən olunmuş qaydada və müddətdə **təqdim edilməməsinə görə 10.000 manat** məbləğində;

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

❖ Vergi Məcəlləsinin 76-1-ci maddəsinə uyğun olaraq, vergi və maliyyə məlumatlarının mübadiləsini nəzərdə tutan Azərbaycan Respublikasının tərəfdar çıxdığı **beynəlxalq müqavilələrin tələblərinin pozulması həmin müqavilələrin tərəfi olan digər dövlətin səlahiyyətli orqanının bildirişinə əsasən aşkar edildikdə**, hər belə hesab üçün **1.000 manat** məbləğində.

✻ Xatırladırıq ki, qeyd olunan maliyyə sanksiyaları 2019-cu il yanvarın 1-dən 1 il müddətində belə hallara birinci dəfə yol verildikdə vergi orqanı tərəfindən rəsmi (yazılı) xəbərdarlıq edildikdən sonra həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı tətbiq olunur.

! Vergi qanunvericiliyinin tələbləri ilə bağlı əlavə məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.